**Beşinci bölmə**
**Kobiaşvili Gürcüstana qarşı işi**

STRASBURQ 14 mart 2019-cu ul

*Bu qərar Konvensiyanın 44-cü maddəsinin 2-ci bəndində göstərilən hallara uyğun yekun qərardır. Redaktə baxımından dəyişdirilə bilər.*

İnsan Hüquqları üzrə Avropa Məhkəməsi (Beşinci Bölmə):
Angelica Nusberger, Prezident,
Yonko Grozev,
Andre Pototsky,
Martins Mits,
Gabriele Kuchsko-Stadlmayer,
Latif Hüseynov,
Lado Chanturia, hakimlər,
və Claudia Westerdiek, Bölmə katibi,
12 Fevral 2019 tarixində qapalı məhkəmə iclasında Kobiaşvili Gürcüstana qarşı işi üzrə aşağıdakı qərarı qəbul etdi:

**PROSEDUR**

1. İş İnsan Hüquqlarının və Əsas Azadlıqlarının Müdafiəsi üzrə Konvensiyanın 34-cü maddəsinə ("Konvensiya") uyğun olaraq, Gürcüstan vətəndaşı Archil Kobiashvili ("Ərizəçi") tərəfindən 21 avqust 2006-cı il tarixdə məhkəməyə verilmiş Gürcüstana qarşı şikayət (36416/06 saylı) əsasında başlanmışdır.
2. Ərizəçi Tbilisdə fəaliyyət göstərən hüquqşünaslar L. Muxaşavria və V. Vaxtanidze tərəfindən, Gürcüstan hökuməti ("Hökumət") isə Ədliyyə Nazirliyinin əməkdaşı cənab L.Məşorkadze tərəfindən təmsil olunmuşdur.
3. Ərizəçi xüsusilə şikayət edirdi ki, ona qarşı cinayət təqibi ədalətsiz aparılmış, barəsindəki hökm saxta sübutlara əsaslanmışdır.
4. 10 yanvar 2008-ci il tarixdə Hökumət şikayət barədə məlumatlandırıldı.
5. 5 iyun 2013-cü ildə, tərəflər qəbulediledilənlik və işin mahiyyəti ilə bağlı bütün arqumentlərini təqdim edildi

**FAKTLAR**

I.İşin Halları

6. Ərizəçi 1973-cü ildə anadan olub və Tbilisdə yaşayır.

7. 7 noyabr 2002-ci ildə ərizəçi ictimai asayişi pozduğuna və polis məmuruna müqavimət göstərdiyi üçün 5 il həbs cəzasına məhkum edilmişdir.

**A. ərizəçinin şəxsi axtarışı və həbsi**

8. 4 iyul 2004-cü ildə Tbilisin Gldani-Nadzaladevi rayon polis şöbəsində ("rayon polis şöbəsi") cinayət axtarış idarəsinin rəisi, ərizəçininin saxlanması və təxirəsalınmadan üzərində şəxsi axtarış aparılması barədə qərar verdi. Qərarda göstərilmişdir ki, daxil olmuş əməliyyat məlumatlarına əsasən, narkotik maddələrin saxlanması və istifadəsində şübhəli bilinən ərizəçinin üzərində Gürcüstan CPM-nin 290, 321 və 325-ci maddələrinə uyğun olaraq şəxsi axtarış həyata keçirilməlidir (yuxarıda 37-cü bənddə bax). Qərar əvvəlcədən hazırlanmış standart ifadələrdən ibarət olmaqla ərizəçinin adı və soyadı, qanunsuz narkotik maddə saxlamaqda şübhələndiyi əlyazma ilə göstərilmişdir. Qərar, polis məmuru tərəfindən imzalanmış və müvafiq rayon polis şöbəsinin rəhbəri tərəfindən təsdiqlənmişdi.

9. Hadisənin rəsmi versiyasına görə, həmin gün saat 5.20 radələrində ərizəçi iki dostuyla bilyard zalına girərkən, zalın qarşısında park edilmiş bir avtomobildə gözləyən iki polis məmuru onu yanlarına çağırdı. Ərizəçi onlara yaxınlaşdı. Daha sonra polis müvafiq məhkəmə qərarı olmadan onun üstünü axtarış etdi. Polis şöbəsində sonradan hazırlanmış şəxsi axtarış üzrə ppotokolda deyilirdi:

"...saxlanılmış şəxsin cinayət törətdiyini təsdiq edən sübutları (narkotik maddə heroini) məhv etməyə çalışacağını şübhə altına almağa kifayət qədər əsaslar olduğunu nəzərə alınaraq, 1973-cü il təvəllüdlü Archil Jugheli Kobiasvilinin üzərinə şəxsi axtarış keçirildi".

Hesabatda qeyd olunurdu ki, axtarışdan əvvəl ərizəçiyə "heroini saxladığı yeri göstərməsi" təklif edildi. Ərizəçi "ağ kağıza bükülü heroin narkotik vasitəsini daşıdığı şalvar cibini işarə etdi. Nəticədə onun şalvarının cibindən bükülüdə sarı toz şəklində maddə aşkar edildi. Axtarışda iştirak edən iki hal şahidi, cənab U.K. və cənab L.T., həmçinin polis məmuru Ş.Ş., şəxsi axtarış üzrə protokolu imzalamışdılar. Ərizəçi onu imza etməkdən imtina etmişdi. Axtarış saat 5.20-dən 5.45-dək davam etmişdi.

10. Ərizəçi rəsmi olaraq saat 6-da narkotik maddə olan heroinin qanunsuz istifadəsi və saxlanması şübhəsi ilə əlaqədar həbs edildi. O, həbs sənədinə yenidən imza etməkdən imtina etdi.

11. Müvafiq rayon polis şöbəsinin müdiri eyni tarixdə (sənədin tarixi qoyulmamışdır) 4 iyul 2004-cü ildə saat 5.45-də ərizəçinin şəxsi axtarışının keçirildiyi barədə Tbilisi Gldani-Nadzaladevi rayon prokuroruna raport yazmışdır. Raportda göstərilirdi ki, müvafiq istintaq tədbiri məhkəmə qərarı olmadan və cinayət işi başlanmadan təxirəsalınmaz hallarla əlaqədar aparılmışdır. Polis məmuru raportda prokurordan Gldani-Nadzaladevi Rayon Məhkəməsinə müraciət edərək, axtarış faktının leqallaşdırılmasını xahiş etdi.

12. İstintaq materiallarına əsasən, 4 iyul 2004-cü il tarixində, yuxarıda göstərilən xahiş əsasında, Tbilisi Gldani-Nadzaladevi rayon prokuroru həmin rayon Məhkəməsinə təqdimat verərək, təxirəsalınmaz halla əlaqədar, məhkəmənin qərarı olmadan 4 iyul 2004-cü ildə keçirilmiş şəxsi axtarış istintaq hərkətinin leqallaşdırılmasını xahiş etmişdir. Təqdimatda sadəcə ərizəçinin saxlanıldığı yer, axtarış nəticəsində tapılmış maddə və ərizəçinin şübhələnildiyi cinayət göstərmişdir. CPM-nin 290-cu maddəsinə və Gizli Təhqiqatlarının aparılması haqqında qanunun 7 (4) –ci, 8-ci və 9-cu maddələrinə əsasən, prokuror məhkəmədən şəxsi axtarışın qanuni hesab edirilməsini xahiş etmişdir. Təqdimatın əsaslandırılması üçün prokuror üç sənəd təqdim etdi. Birinci polis zabiti Ş.Ş tərəfindən yazılmış əlyazma qeydlərindən ibarət idi. Həmin sənəddə şəxsi axtarışın başqa bir polis zabiri N.O tərəfindən əldə edilmiş "əməliyyat məlumatına" əsasən, digər polis zabiti M.T tərəfindən hal şahidlərinin iştirakı ilə aparıldığı və ərizəçidən heroin aşkar edildiyi göstərilirdi. Əlyazama qeyddə, ərizəçinin şəxsi axtarışına dair polisin rəsmi hesabatından fərqli olaraq (yuxarıda 9-cu bəndə bax) ərizəçinin saxlanılarkən narkotik vasitələrin təsiri altında olduğu qeyd edilirdi.

13. İkinci sənəd, axtarış zamanı təmsil olunan şahidlərdən biri L.T-nin əl yazmasıdır. O, göstərmişdir ki, küçədə gedərkən polis əməkdaşları ona yaxınlaşaraq şəxsi axtarışda iştirak etməsini istədilər. O şübhəli maddənin ərizəçinin cins şalvarının sağ cibindən tapıldığını və ərizəçinin həmin maddənin ona aid olduğunu göstərdiyini iddia etdi. Məhkəməyə təqdim edilən üçüncü sənəd, axtarışın digər şahidi olan U.K. tərəfindən ərizəçinin şəxsi axtarış şəraitinin qısa təsviri olan əlyazma idi. Hər iki şahidin ifadələri eyni məzmunlu əlyazmalar idi.

14. Prokuror məhkəməyə təqdim etdiyi təqdimata ərizəçinin təxirəsalınmaz şəxsi axtarışı barədə qərarın surətini və ərizəçinin işi ilə bağlı işin materiallarını əlavə etməmişdir. Həm də görünür ki, ərizəçinin şəxsi axtarışı barədə protokolun bir nüsxəsi əlavə edilməmişdir (yuxarıda 9-cu bəndə bax).

15. Məhkəmə 5 iyul 2004-cü il tarixdə CPM-nin 290 və 293-cü maddələrinə uyğun olaraq prokurorluq tərəfindən təqdim edilmiş sənədləri araşdırdı və axtarışın qanuni olduğunu elan etdi. Nəticəyə gəlindi ki, "təqdimatın əsalandığı sənədləri nəzərdən

keçirdikdən sonra [məhkəmə] Archil Kobiashvilinin şəxsi axtarışının cinayət prosessual qanunvericiliyin qaydalarına uyğun olaraq təxirəsalınmaz zəruri hallarla əlaqdar həyata keçirildiyini və keçirilməsi üçün qanuni əsasların olduğunu nəzərə alir. Ərizəçinin axtarış şəraiti ilə bağlı öz mülahizələrini təqdim etməsinə icazə verilməyib. Qərara qarşı heç bir şikayət verməyib.

16. Müəyyən edilməmiş tarixdə ərizəçiyə rəsmi olaraq Cinayət Məcəlləsinin 260-ci maddəsinin 2-ci bəndinə əsasən narkotik vasitələr əldə etməsi və saxlanması barədə ittiham elan olunub.

17. 5 avqustda ərizəçinin şəxsi axtarışında iştirak etmiş iki şahid yenidən dindirildi. Onlar ərizəçinin şəxsi axtarışının hallarını daha ətraflı izah edərək, ilkin ifadələrini təsdiqlədilər. 2004-cü il avqustun 7-də polis rəisi Ş.Ş.-də şahid qismində dindirildi. O, bir daha iki polis məmuru, N.O. və M.T.-nin əməliyyat məlumatları əsasında hərkət etdiklərini və həmin məlumatlarda bilyard zalına bitişik ərazidə bir şəxsin narkotik maddələrin təsirinə məruz qaldığının bildirilirdiyini göstərdi .

18. 26 avqust 2004-cü ildə istintaq orqanlarının məhkəmə ekspertizası, axtarış zamanı aşkar edilən maddənin 0,059 qram heroin olduğunu təyin etdi. Əlavə olaraq, 27 avqust 2004-cü il tarixdə keçirilmiş narkotik testi ərizəçinin narkotik maddə asılılığı olmadığını aşkar etdi, lakin, "profilaktik müalicə"yə ehtiyacı olduğunu qeyd etdi .

19. Ərizəçi istintaq zamanı ifadə verməkdən imtina etdi.

**B. Ərizəçinin dəlilləri**

20. 10 dekabr 2004-cü ildə Gldani-Nadzaladevi Rayon Məhkəməsi ərizəçinin barəsindəki məhkəmə iclasını açdı. Biliard zalının qarşısında baş verən hadisələri izah edən ərizəçi günahkar olmadığını iddia etdi. O iddia etdi ki, həbsindən əvvəl və ya sonra o, axtarış olunmayıb və ona ittiham olunan narkotik maddə polislərə aiddir. Polis əməkdaşlarıınn onu polis bölməsinə apardıqlarını, orada narkotik vasitənin "qızdırılaraq" injeksiya yolu ilə zorla ona vurulduğunu, daha sonra test edilmək üçün bir toksikoloji klinikaya aparıldığını göstərdi.

21. 21 dekabr 2004-cü ildə ərizəçinin şəxsi axtarışında iştirak etmiş şahidlərdən biri U.K., məhkəmədə dindirildi. Ərizəçinin 4 iyul 2004-cü il tarixli şəxsi axtarışında iştirak etmədiyini, lakin saat 10-da işlədiyi tikintidə polis əməkdaşlarının ona yaxınlaşdığını və oradan birbaşa polis məntəqəsinə aparıldığını göstərdi. Ona polisin diktəsi ilə izahat yazdırıldığını və oxumadan əl yazma bir hesabatı imzalatdırdıqlarını göstərdi. Polis idarəsində təhqir edildiyini və polisin onu həbs etməklə təhdid etdiyini göstərdi.

22. 27 dekabr 2004-cü ildə polis rəisi Ş.Ş məhkəmədə dindirildi. O, ərizəçinin əməliyyat məlumatları əsasında saxlandığını və iki hal şahidinin iştirakı ilə şəxsi axtarış edildiyini təsdiqlədi. 9 mart 2005-ci ildə məhkəmədə dindirilən ikinci polis məmuru N.O., əməliyyat məlumatları əsasında hərəkət etdiyini izah etdi. Əlavə olaraq, ərizəçinin narkotik vasitələrin təsirinə məruz qaldığının adi gözlə görüləcəyinə əmin olmadığını bildirdi. Şahid U.K.-nin məhkəmə iclasındakı ifadəsinin həqiqətə uyğun olmadığını göstərdi və ərizəçinin şəxsi axtarışının rəsmi versiyasını təsdiq etdi və şəxsi axtarışın ərizəçinin həbs olunduğu yerdə dərhal aparıldığını bildirdi.

23. Bu arada axtarışini ikinci şahidi L.T. məhkəmə qarşısına çıxmaqdan imtina etdi. 18 fevral 2005-ci il tarixdə məhkəmə bildirişi aldıqdan sonra hakimə 22 fevral 2005-ci ildə Birləşmiş Ştatlara planlaşdırılan səfərilə əlaqədar məhkəmə iclasında iştirak edə bilməyəcəyini bildirmişdir.

24. Məhkəmə ərizəçinin həbs zamanı onunla birlikdə olmuş iki dostunun ifadəsini də dinlədi. Onlar bildirdilər ki, polislər ərizəçini çağıranda və o, onların avtomobilinə yaxınlaşanda onlar üçü də bilyard zalının qarşısında dayanmışdılar. Hər ikisi göstərdi ki,

ərizəçi saxlandığı yerdə üzərinə şəxsi axtarış edilmədən dərhal polis bölməsinə aparılmışdır.

25. Ərizəçinin vəkili yekun çıxışında məhkəmədən müxtəlif prosessual pozuntulara görə ərizəçinin şəxsi axtarışına dair hesabatın mümkünsüz sübut sayılmasını xahiş etdi. O, həmçinin axtarışda iştirak edən ikinci hal şahidi L.T.-nin keçmiş polis məmuru olduğunu, bir çox cinayət işlərində şahid qismində iştirak etdiyini, polisin agenti olduğunu iddia etdi.

26. 2005-ci il aprelin 18-də Gldani-Nadzaladevi rayon Məhkəməsi ərizəçini verilmiş ittiham üzrə təqsirli bilib altı il müddətinə həbs cəzasına, və əvvəlki hökmlə təyin edilmiş cəzanın çəkilməmiş altı ayla birləşdirməklə məhkum etdi. Məhkəmə ərizəçini həbs edib şəxsi axtarış edən iki polis məmurunun ifadələrinə, həmçinin şəxsi axtarışın nəticələrinə dair protokola istinad etməklə təqsirli bilmişdir. Şahid U.K.-nın ziddiyyətli ifadələrinə gəldikdə isə, məhkəmə nəticəyə gəldi ki, "qəti şəkildə müəyyən edilməmişdir ki, o, şəxsi axtarışda iştirak etməmiş və yalnız polis şöbəsində sənədləri imzalamışdır". Buna görə də, məhkəmə U.K.-nın ifadəsinin axtarış zamanı iştirak etmədiyinə dair hissəsini nəzərə almadı. Məhkəmə həmçinin, ərizəçinin iki dostlarının ifadəsini nəzərə ala bilməyəcəyini qərara almışdı ki, onlar təqsirləndirilən şəxsin dostu olduqlarına görə onun xilas etmək üçün leyhinə ifadə vermişlər.

27. Ərizəçi bu hökmdən Tbilis Apellyasiya Məhkəməsinə şikayət edərək, onun tutulması zamanı şəxsi axtarış edilmədiyini və onun məhkum edilməsinin saxta sübutlara əsaslandığını təkrarladı. O, birinci instansiya məhkəməsinin dostlarının şahid ifadələrinə və şəxsi axtarışın şahidi olmadığını ifadə edən cənab U.K.-nın ifadəsinə obyektiv hüquqi qiymət vermədiyini bildirdi. Ərizəçi həmçinin şahid L.T.-nin məhkəmə iclasında dindirilmədiyini bildirdi. Şahid L.T.-nin ünvanını məhkəməyə təmin etdi və məhkəmədən onu dindirilməsini istədi. Eyni zamanda, o, bütün şahidlərin, yəni iki polis əməkdaşının, U.K.-nın və onun dostlarının yenidən məhkəmə iclasında dindirilməsini xahiş etdi.

28. 3 iyun 2005-ci ildə apellyasiya şikayətinə baxılmağa başlanmışdır. Apellyasiya Məhkəməsi hadisələrin rəsmi versiyasını təsdiq edən ərizəçinin həbs edilməsini icra etmiş iki nəfər polis zabitinin ifadəsini dinlədi. Onlar hər ikisi qeyd etdilər ki, əməliyyat məlumatlarında sadəcə bir şəxsin narkotik maddələrin təsirinə məruz qaldığı göstərilirdi. Onların heç biri bu məlumatı polis bölməsində kimin aldığını və telefonla və ya başqa bir vasitə ilə verildiyini xatırlaya bilmədilər.

29. Apellyasiya məhkəməsi, axtarışın ikinci şahidi olan L.T.-ni dindirdi və o, polisin tələbi ilə axtarışda iştirak etdiyini təsdiq etdi. Ifadəsində ərizəçinin şalvarının cibindən sarımtıl maddənin tapıldığını gördüyünü göstərdi. O, keçmiş polis məmuru olması və ya keçmişdə polislə hər hansı formada əməkdaşlıq etməsi barədə müdafiə tərəfinin dəlillərini təkzib etdi. Birinci şahid U.K., birinci instansiya məhkəməsində verdiyi ifadəsini təsdiqlədi. O, ərizəçinin şəxsi axtarışında iştirak etmədiyini və polis idarəsində bir neçə sənədi imzalamağa məcbur edildiyini göstərdi. O, polis idarəsində psixoloji və fiziki təzyiqlərə məruz qaldığını iddia etdi. Eyni zamanda, prokurorun suallarını cavablandırarkən U.K. göstərdi ki, imzaladığı sənədlərin ərizəçi ilə bağlı olduğunu öyrənib, onun qardaşının ziyarətinə getdiyini və ona hər şeyi söylədiyini bildirdi. Daha sonra ərizəçinin əmisi oğlanlarından biri ilə Xalq müdafiəçisinin dəftərxanasına getmiş və onlara işin hallarını ətraflı təsvir etmişdir.

30. Ərizəçinin iki dostu da apellyasiya məhkəməsində yenidən dindirildi. Onlar birinci instansiya məhkəməsinə verdikləri ifadələri təsdiqlədilər.

31. 18 noyabr 2005-ci il tarixli iclasda ərizəçinin vəkili ərizəçinin şəxsi axtarışına dair polis hesabatı da daxil olmaqla sübutların mümkünsüz hesab edilməsi barədə kassasiya məhkəməsinə müraciət etdi. Vəkil ilk növbədə axtarışın məhkəmə qərarı olmadan və ya baş müstəntiqin icazəsi olmadan həyata keçirildiyini iddia etdi və bunun CPM-nin müvafiq müddəalarına zidd olduğunu göstərdi. O, arqumentlərini onunla əsaslandırdı ki, şəxsi axtarış aparmaq barədə qərar baş müstəntiq tərəfindən imzalanmamış, onun tarixi dəqiq

göstərməmişdir. Şəxsi axtarış barədə qərarda ərizəçinin həbsindən və şəxsi axtarışından sonra müəyyən edilmiş faktlar, ərizəçinin şəxsiyyəti, onun adı və ünvanı daxil olmaqla ətraflı məlumatlar, narkotik maddənin növünün heroin olması qabaqcadan göstərilmişdir. Bundan əlavə, qərar axtarışdan əvvəl ərizəçiyə elan edilməmişdir. İkincisi, birinci və ikinci instansiya məhkəmələrindəki ifadələrində şahid U.K. birmənalı olaraq ərizəçinin şəxsi axtarışının şahidi olmadığını və bəzi sənədləri polis məntəqəsində imzaladığını bildirmişdir. İkinci şahidə gəldikdə, L.T. Polislə əvvəlki əməkdaşlığı haqqında yalan ifadə vermişdi. Müdafiə tərəfinin sorğusu əsasında DİN-dən alınmış cavabda L.T.-nin 1996-cı ildə Daxili İşlər Nazirliyində çalışdığı göstərilmişdir. Üçüncüsü, ərizəçinin yoldaşları dəfələrlə ifadələrində onun həbs olunduğu yerdə şəxsi axtarış edilmədiyini bəyan etmişdi. Beləliklə müdafiə tərəfi şəxsi axtarış hesabatının Cinayət Prosessual Məcəlləsinin 111-ci maddəsinə uyğun olaraq mümkünsüz sübut kimi istisna edilməsini tələb etdi.

32. 6 dekabr 2005-ci ildə kassasiya məhkəməsi ərizəçinin müdafiəçisinin şikayətini tamamilə rədd etdi. Axtarış qərarı ilə əlaqədar göstərilirdi ki, qərar CPM-nin 67-ci maddəsinin tələblərinə uyğun olaraq səlahiyyətli polis məmuru tərəfindən qəbul edilmişdir. Həmçinin qərarın şəxsi axtarışdan əvvəl ərizəçiyə həqiqətən oxunub-oxunmadığını müəyyən etməyin mümkün olmadığı göstərilmişdir. Məhkəmə prosesinin bu mərhələsində bu prosedurun iddia edilən pozuntusunu qiymətləndirməyin mümkün olmadığı göstərilmişdir.

33. 21 fevral 2006-cı ildə apellyasiya məhkəməsi birinci instansiya məhkəməsinin hökmünü qüvvədə saxladı. Məhkəmə hesab etdi ki, ərizəçinin təqsiri şəxsi axtarışa dair hesabatla, axtarışda iştirak etmiş iki polis zabitlərinin ifadələri və işdə olan digər sübutlarla təsdiqlənmişdir. Şahid U.K.-nın ifadələri ilə əlaqədar olaraq, apellyasiya məhkəməsi qeyd etdi ki, işin materiallarına zidd olduğuna və "məntiqsiz" olduğuna görə onun məhkəmədə verdiyi ifadəni etibarlı hesab etmir. Bundan əlavə onun ərizəçinin ailəsinin təsirinə məruz qaldığı ehtimal edilirdi. Apellyasiya məhkəməsi L.T.-nin bəyanatına istinad edərək, ərizəçinin onun keçmiş polis məmuru olması ilə bağlı şikayətini nəzərə almadı. Ərizəçinin iki dostunun dəlillərini etibarsız saydı.

34. 6 mart 2006-cı ildə ərizəçi apellyasiya məhkəməsinin qərarından kassasiya şikayəti vermişdir. O, ilkin istintaq zamanı baş vermiş ciddi prosessual pozuntuların onun öz hüquqlarını müdafiə etmək imkanını itirməsinə, məhkum edilməsinin qeyri-qanuni sübutlarla əsalandırılmasını, xüsusilə təxirəsalınmaz hallar olmadan şəxsi axtarış barədə qanunsuz qərar qəbul edilməsini iddia etmişdir. O, həmçinin, sübutların mümkünsüzlüyünə dair ərizəsini təmin etməkdən imtina barədə kassasiya məhkəməsinin qərarının əsassızlığından şikayət etmişdir.

35. 2006-cı il iyunun 12-də Gürcüstan Ali Məhkəməsi ərizəçinin şikayətini Cinayət Prosessual Məcəlləsinin 547-ci maddəsinin 2-ci bəndinin tələblərinə uyğun olmaması səbəbindən qəbuledilməz elan etdi.

36. 3 yanvar 2011-ci ildə ərizəçi azadlıqdan məhrumetmə cəzasının müddətinin bitməsindən sonra həbsxanadan azad edilib.

## II. MÜVAFİQ DAXİLİ QANUNVERİCİLİK VƏ TƏCRÜBƏ

37. Proses gedən vaxtda qüvvədə olan Cinayət Prosessual Məcəlləsinin müvafiq müddəaları aşağıdakı kimi olmuşdur:

**Maddə 13. Şəxsi həyatın toxunulmazlığı**

" 2. Axtarış [və / və ya] götürmə ... yalnız bir hakimin qərarı ilə və ya məhkəmə qərarı əsasında icazə verilir. Qanunda nəzərdə tutulduğu kimi təcili zərurət olduqda ... axtarış və götürmə məhkəmə qərarı olmadın aparıla bilər, lakin onların qanuniliyi və əsaslandırılması müvafiq sənədləri təqdim edildikdən sonra 24 saat ərzində hakim

tərəfindən qiymətləndirilməlidir. . Eyni zamanda, hakim iddia edilən prosessual tədbir nəticəsində əldə edilmiş sübutların qəbuledilənliyi barədə qərar qəbul edir. "

**Maddə 73. Şübhəli şəxsin hüquqları**

"1. Şübhəlinin hüququ var ki,... müstəntiqin hərəkətlərinə və qərarlarına, prokurorun, [hərəkətlərinin və qərarlarının] prokurorun tabe olduğu prokurora, yaxud cari Məcəllədə nəzərdə tutulmuş hallarda - məhkəmə qarşısında etiraz etsin».

**Maddə 102. İstintaq şahidi**

"1. Apellyasiya instansiyası məhkəməsi istintaq orqanının, müstəntiqin istintaq tədbirinin həyata keçirildiyini, onun gedişini və nəticələrini təsdiq etmək üçün çağırır.

2. İstintaq tədbirində iştirak etmək məqsədi ilə işin nəticəsinə maraq göstərməyən şəxslərdən ən azı iki şəxs çağırılır. Müstəntiq istintaq tədbirinin başlamazdan əvvəl onlara hüquqlarını və vəzifələrini oxumalıdır. "

**Maddə 111. Sübutların mümkünsüzlüyü**

"1. Aşağıdakı hallarda əldə edildiyi təqdirdə mümkünsüz hesab olunur:

c) qanunu pozmaqla, zor tətbiq etmələ, hədə-qorxu, aldatma, şantaj, təhqir və ya digər qeyri-qanuni üsullarla əldə edildikdə;

(d) qanunu pozmuş və ya məlumatın mənbəyini, yaxud harada, nə vaxt və necə əldə etdiyini göstərə bilməyən şəxsdən alındıqda. ... "

**Maddə 234. Cinayət-prosessual səlahiyyətləri həyata keçirən orqan və ya vəzifəli şəxsin hərəkətinə və ya qərarına etiraz etmək hüququ**

Təhqiqatçının, istintaq orqanının, müstəntiqin, istintaq orqanının rəhbərinin, prokurorun, hakimin və ya məhkəmənin hər hansı bir qərarı və ya hərəkətinə bu Məcəllənin müddəalarına uyğun olaraq cinayət prosesində tərəflər və ya digər vətəndaşlar və təşkilatlar tərəfindən şikayət verilə bilər. ""

**Maddə 263. Cinayət törətmək barədə məlumat**

"1. Cinayət işi cinayətin törədilməsi barədə şəxsin, dövlətin vəzifəli şəxsinin verdiyi, kütləvi informasiya vasitələrində çap edilmiş, ya da istintaq zamanı aşkar edilmiş məlumatlar əsasında istintaqa məsulu olan orqan tərəfindən başlanır...

2. Anonim məlumat cinayət işinin başlanması üçün əsas ola bilməz. Bu növ informasiya gizli araşdırmalar apararaq təsdiq edilə bilər. "

**Maddə 265. Cinayət törətməklə bağlı məlumatların araşdırılması**

"1. Cinayət törətməklə bağlı məlumat yazılı və ya şifahi şəkildə verilə bilər.

2.Yazılı məlumatlar məlumatı verən şəxs və onu əldə edən vəzifəli şəxs tərəfindən imzalanmış hesabatda qeyd edilir.

**Maddə 272. Şahidlərin istintaq hərəkətinə iştirakı**

"1. Axtarış [və / və ya] götürmə ən azı iki şahidin iştirakı ilə həyata keçirilir.

**"Maddə 290. İstintaq hərəkətləri məhkəmənin icazəsi ilə aparılır**

2.Axtarış və götürmə müstəsna hallarda məhkəmənin qərarı olmadan təhqiqatçının, müstəntiqin və ya prokurorun əmri ilə keçirilə bilər. Belə hallarda hərkəti keçirmiş orqan səlahiyyətli hakimi 24 saat ərzində keçirilmiş istintaq hərkəti barədə

məlumatlandırır və onun zəruriliyini təsdiq edən cinayət işinin materiallarını ona təqdim edir. Hakim prokurorun iştirakı ilə tədbirin qanuna uyğun aparılmasını yoxlayır: a) onun leqalizasiyası haqqında; b) onun qanunsuzluğunun elan edilməsi və mümkünsüzlüyü barədə qərar qəbul edir.

3. Təxirəsalınmaz vəziyyətlərdə cinayət işi başlananadək və məhkəmə qərarı olmadan axtarış [və / və ya] götürmə həyata keçirilə bilər. Belə halda təhqiqat orqanı əsaslandırılmış qərar qəbul etməlidir ("მოტივირებული დადგენილება"). [İstintaq orqanı] [prokurorluğa] istintaq tədbirinin aparılması barədə dərhal məlumat verir. İstintaq tədbiri barədə qərar vermiş təhqiqat orqanının qərarı, müvafiq hesabatlar və faktiki hallar barədə qərarı ilə tanış olduqdan sonra, prokuror 24 saat ərzində hakimə müraciət etməlidir ... cinayət işi başlanmsından əvvəl istintaq hərəkətini aparılmasınn zəruriliyini təsdiq edən materialları təqdim etməlidir. Hakim, prokurorun iştirakı ilə cinayət işi başlamazdan əvvəl həyata keçirilən istintaq tədbirinin qanuniliyini yoxlayır. Prokurorun tələbini araşdırdıqdan sonra hakim: (a) istintaq tədbirinin qanuniliyinə qərar verinr... və ya (b) qanunsuz elan etməli, istintaq hərəkətləri əsasında başlanmış cinayət şinə xitam verməlidir.

... 4. Təxirəsalınmaz hallar aşağıddakılardır: sübutların itirilməsinə və məhv edilməsinə real təhlükə olduqda, şəxs cinayət başında yaxalandıqda (flagrante delicto); başqa işin istintaqı gedişində işə aid sənədlər və dəlillər aşkar edildikdə (hadisə yerinə baxış, istintaq eksperimenti); başqa əsaslarla məhkəmə qərarı almaq mümkün olmadıqda (hakim yerində olmadıqda)

7.Bu maddənin 2 və 3-cü bəndlərində nəzərdə tutulmuş hallarda məhkəmə prosesinin stenoqramı tərtib edilmir və hakim qərarına etiraz edilməyəcəkdir.

**"Maddə 321. Şahidin və ya digər şəxslərin axtarış və götürmədə iştirakı**

"1. Axtarış və götürmədə ən azı iki şahid iştirak etməlidir.

**Maddə 325. Şəxsi axtarış və götürmə**

3. Şəxsi axtarış və ya götürmə məhkəmə qərarı və ya aşağıdakı hallarda məhkəmə qərarı olmadan həyata keçirilə bilər:

(a) əgər ... şübhəli şəxsin həbs edildiyi zaman, silahı ola biləcəyi və ya sübutdan xilas olmağa çalışdığına inanmaq üçün etibarlı əsaslar varsa ...;

(b) şübhəli polis bölməsinə gətirildikdən sonra həbs barədə protocol tərtib edildikdə;

c) təqsirləndirilən şəxsi həbs edərkən ...

d) axtarış və ya götürmə yerindəki şəxsin hər hansı bir predmeti və ya sənədi gizlətdiyinə inanmaq üçün kifayət qədər əsaslar varsa. "

**Maddə 547. Hüquq məsələləri üzrə şikayət vermə qaydası** (23 iyun 2005-ci ildə qəbul edilmiş)

2. Hüquqi məslələrlə əlaqədar şikayətlərə yol verilir, əgər:

(a) İş hüququn inkişafı və presedent hüququnun inkişafı üçün vacib əhəmiyyətə malikdirsə;

(b) əgər apellyasiya qərarı Ali Məhkəmə tərəfindən anoloji işlər üzrə tətbiq etdiyi presedent hüququndan fərqlənirsə;

(c) Apellyasiya şikayəti üzrə işin baxılması məhkəmə icraatının nəticələrinə təsir göstərə biləcək şəkildə qanuna və ya prosedur qaydalarına ciddi şəkildə zidd olmuşdur ".

38. 23 iyun 2005-ci ildə qəbul edilmiş düzəlişlərdən sonra, Ali Məhkəmənin hüquqa aid şikayətləri araşdırması barədə Məcəllənin 548-ci maddəsi ləğv edildi.

## III. ƏLAQƏLİ HüQUQ VƏ TƏCRÜBƏ

39. Məhkəməyə daxil olmuş iyirmi altı üzv dövlətə aid olan məlumatların müqayisəli təhlilinə əsasən, bütün dövlətlərdə cinayət işi başlananadək polisin bəzi istisnalarla, şəxsi axtarış aparmaq hüququ vardır. İki dövlətdən başqa digərlərində ümumi qaydada şəxsi axtarışdan əvvəl məhkəmə qərarının olması tələb edilir. Ancaq bu qaydadan iki universal istisna var: təxirəsalınmaz vəziyyətdə gecikmə istintaqı təhlükə altında qoyduqda; cinayət bilavasitə törədilərkən və törədildikdən dərhal sonra istintaqdan gizlənmə ehtimalları olduqda.

40. Məhkəmə qərarı olmadan axtarış aparmaq üçün tələb olunan dəlil standartı "əsaslı şübhə" dir. Başqa sözlə, polis konkret halda heç olmasa ən azı dəqiq ağlabatan faktiki əsaslandırma olmadan şəxsi axtarış apara bilməz. Şahidlərin şəxsi axtarış zamanı iştirakı tələbi yalnız altı ölkədə tələb olunur. Heç bir ölkədə axtarış zamanı müdafiəçinin iştirak etməsi tələb olunmur, lakin, dörd ölkədə maraqlı tərəfin istəyi ilə belə bir imkan verilir. Nəhayət, dövlətlərin heç birində axtarışın audio və ya video yazısını qeyd etməsi öhdəliyi yoxdur.

41. Yalnız altı üzv dövlətdə məhkəmə qərarı olmadan aparılan axtarışın nəticələrinin araşdırılması üçün xüsusi müstəqil məhkəmə baxışı təmin edilir.

## HÜQUQ

## I. KONVENSİYANIN 6-cı MADDƏSİNİN 1-CI BƏNDİNİN İDDİA EDİLƏN POZUNTUSU

42. Ərizəçi şikayət etdi ki, ona qarşı cinayət mühakiməsi ədalətsiz aparılmışdır, çünki onun məhkum edilməsi saxta sübutlara əsaslanırdı. O, həmçinin bu məsələdə öz maraqlarını effektiv şəkildə müdafiə etmək imkanından məhrum olduğunu iddia etdi. Konvensiyanın 6-cı maddəsinin 1-ci bəndinə və 13-cü maddəsinə istinad etdi.

43. Məhkəmə artıq qərara alıb ki, 6-cı Maddənın 13-cü maddə ilə bağlı rolu bir xüsusi qanundur, 13-cü maddənin tələbləri isə 6-cı maddənin daha sərt tələbləri ilə əhatə olunur. Ona görə də Ərizəçinin şikayəti yalnız Konvensiyanın 6-cı maddəsinin 1-ci bəndinə əsasən araşdırılmalıdır. Konvensiyanın 6-cı maddəsinin birinci bəndində deyilir:

> Hər kəs, ona qarşı hər hansı cinayət ittihamı irəli sürülərkən, qanun əsasında yaradılmış müstəqil və qərəzsiz məhkəmə vasitəsilə, ağlabatan müddətdə işinin ədalətli və açıq araşdırılması hüququna malikdir.

### A. QƏBULEDİLƏNLİK

*1. Tətəflərin arqumentləri*

44.Hökumət bildirdi ki, ərizəçinin Konvensiyanın 6-cı maddəsinə əsasən şikayəti daxili hüquqi müdafiə vasitələrinin tükəndirilməməsi səbəbindən qəbuledilməz elan edilməlidir. Birincisi, onlar iddia etdi ki, ərizəçi CPM-nin 73-cü və 234-cü maddələrinə əsasən narkotik vasitələrin onun üzərinə polis tərəfindən qoyulması barədə məsul müstəntiqə və ya prokurora şikayət etməmişdir. İkincisi, ərizəçi şəxsi axtarışı barədə hesabatın və sonrakı sübutların qəbuledilməz olaraq rədd edilməsi üçün CPM-in 111-ci maddəsinin (g) və (d) bəndlərinə əsasən birinci instansiya məhkəməsinə müraciət etməmişdir. Üçüncüsü,

ərizəçi, şəxsi axtarış barədə protokolun sübut kimi tanınmasına dair Apellyasiya məhkəməsinin 6 dekabr 2005-ci il tarixli qərarını hüquqi məsələlər üzrə ayrıca mübahisələndirərkən uğursuzluğa düçar olmuşdur. Nəhayət, Hökumətə görə ərizəçi CPM-in 364-cü maddəsinə əsasən özünün mümkün olan narkotikdən asılılığı vəziyyətini müəyyənləşdirməsi üçün alternativ məhkəmə-tibbi ekspertizası keçirmək üçün xahiş etməmişdir.

45.Hökumət təsdiq edirdi ki, ərizəçinin şikayəti həm də ona görə açıqca əsassız idi ki, tərəflərin bərabərliyi prinsipinin məhkəmə icraatı zamanı pozulduğuna dair iddiasını əsaslandıra biməmişdir.

46. Ərizəçi hökumətlə razılaşmadı. O, bildirdi ki, CPM-nin 73-cü maddəsinə əsasən nəzarətçi prokurora şikayət etməməsinin səbəbi, təxirəsalınmaz hallarla əlaqədar şəxsi axtarış aparmaq barədə qərarın surətini heç vaxt ala bilməməsi olmuşdur. Şəxsi axtarışı barədə hesabatın mümkünsüz hesab edilməsi barədə birinci instansiya məhkəməsinə müraciət etməməsi məsələsinə gəldikdə isə, o, bu məsələni birbaşa Apellyasiya Məhkəməsi qarşısında qaldırıldığını, həmçinin hüquqi məsələlər üzrə Ali Məhkəməyə müraciət etdiyini göstərdi. Buna görə də, sübutların mümkünsüzlüyü ilə əlaqədar Ali Məhkəmədə ayrı-ayrılıqda tələb irəli sürülməsi lüzumsuz idi. Hər halda, ərizəçiyə görə, müvafiq qaydada baxılıb pozuntuları aradan qaldırmaq üçün müvafiq şikayət tamamilə səlahiyyətli üç məhkəmə instansiyasına da təqdim edilmişdir.

*2. Məhkəmənin qiymətləndirməsi*

47. Ərizəçinin polisin hərəkətlərindən böyük müstəntiqə və ya prokuroroa şikayət verməməsinə gəldikdə, Məhkəmə özünün formalaşmış presedent praktikasına əsasən qeyd edir ki, bütövlükdə ierarxik hüquqi müdafiə vasitələri, tərəflər onların araşdırmalarında iştirak etmək imkanına malik olmadıqda effektiv sayıla bilməz. Bundan əlavə, işin materiallarında olduğu kimi, ərizəçinin iddia etdiyi və hökumətin mübahisələndirmədiyi hal odur ki, təxirəsalınmaz hallarla əlaqədar ərizəçinin şəxsi axtarışının aparılması barədə qərarın surəti ona verilməmişdir (yuxarıda 31-ci və 32-ci bəndlərə bax). Buna görə də o, həmin qərara qarşı şikayət verməməsi səbəbindən tənqid edilə bilməz (yuxarıda göstərilən Giorgi Nikolaishvili, § 112-ə baxın, Baxayev və Anzorov v. Gürcüstan, bax: 39804/04, § 35, 18 dekabr 2012-ci il.

48. Hökumətin etirazının ikinci hissəsinə gəldikdə isə, ərizəçi hadisələrin gedişi barədə öz mülahizəsini birinci instansiya məhkəməsi qarşısında davamlı şəkildə təkrar etməsinə baxmayaraq, o, həqiqətən də şəxsi axtarışına dair hesabatın və sonrakı sübutların mümkünsüz hesab edilməsini məhkəmədən tələb etməmişdir. Məhkəmə qeyd edir ki, müdafiə tərəfi birinci instansiya məhkəməsi qarşısında yekun nitqində şəxsi axtarış protokolunun həqiqətə uyğun olmadığından ləğv edilməsini xahiş etmişdir (yuxarıda 25-ci bəndə bax). Bundan əlavə, mümkünsüzlük tələbi işi hüquqi və faktlar baxımından araşdırmaq üçün tam səlahiyyətə malik olan apellyasiya məhkəməsi qarşısında qaldırılmışdır (yuxarıda 31-ci bəndə bax). Beləliklə, ərizəçi öz hüquqlarının iddia edilən pozulmasının aradan qaldırılacağını təxmin edə bilərdi. Ərizəçinin əsas dəlillərini hüquqla bağlı şikayətində Ali Məhkəmənin diqqətinə çatdırdığını nəzərə alaraq (yuxarıda 34-cü bəndə bax), onun Tiblis Apelyasiya Məhkəməsinin 18 noyabr 2005-ci il tarixli qərarından ayrılıqda şikayət verməməsi faktı əhəmiyyət kəsb etmirdi (yuxarıda 32-ci bəndə bax).

49. Beləliklə Məhkəmə Hökumətin daxili hüquqmüdafiə vasitələrinin tükəndirilməməsi barədə etirazını rədd edir. O həmçinin qeyd edir ki, şikayət Konvensiyanın 35-ci maddəsinin 3-cü bəndinin mənası baxımından açıq-aşkar əsassız deyil. Başqa hər hansı bir səbəbdən də qəbuledilməz deyildir. Buna görə də, şikayət qəbuledilən sayılmalıdır.

**B. Hüquqi məsələlər**

*1. Tərəflərin arqumentləri*

50. Ərizəçi iddia etdi ki, həbs olunarkən onda heroin narkotik vasitəsi olmamışdır. O,etiraz edirdi ki, yerli məhkəmələr polis tərəfindən verilmiş ifadələri mütləq həqiqi

sübutlar kimi qəbul etdiyi halda, onun dostlarının ifadələrini subyektiv və etibarsız hesab etdilər. O, bildirdi ki, sözdə müstəqil şahidlər sayılan U.K. və L.T.-nin ifadələri çox mötəbərsiz və ziddiyyətli idi. Xüsusilə, 01 noyabr 2005-ci il tarixdə Daxili İşlər Nazirliyindən alınmış arayışda L.T.-nin 1996-cı ilədək polis məmuru olaraq xidmət etməsi göstərilmişdir. Ərizəçinin sözlərinə görə, milli məhkəmələr, bu məlumatı sadəcə görməməzliyə vururdular. Onlar həmçinin U.K.-nin ibtidai istintaqdakı ifadəsini polislər tərəfindən zor təhdidi altında verildiyi barədə bəyanatını da nəzərə almadılar.

51. Ərizəçi şikayət etdi ki, ona qarşı cinayət təqibinin başlanmasına səbəb olan "əməliyyat məlumatları" heç vaxt milli məhkəmələrdə baxışa və məhkəmə nəzarətinə cəlb edilməmişdir. Əməliyyat məlumatı rəsmiləşdirilməmişdir; Ərizəçi barəsində polisə onun şəxsiyyətini eyniləşdirməyə imkan verən məlumatlar verildiyini heç kəs dəqiq göstərə bilməmişdir. Bununla əlaqədar o, CPM-nin 263-cü maddəsinin 2-ci bəndində nəzərdə tutulmuş "anonim məlumatlar konkret şəxsə qarşı cinayət işinin başlanmasına əsas ola bilməz" müddəasını qeyd etdi. O göstərdi ki, heç kim məhkəmə qərarı olmadan ərizəçinin şəxsi axtarışının təxirəsalınmaz əsaslarını və ərizəçinin sübutları məhv edə biləcəyinə əsas verən halların mövcudluğunu göstərə bilmədi.

52. Hökumət iddia edirdi ki,ərizəçi barəsində cinayət təqibinin bütün müddətində tərəflərin bərabərliyi prinsipi təmin edilmişdir. Göstərdilər ki, ərizəçi həbs edilən kimi müdafiə hüququ, öz müdafiəçisini seçmək hüququ barədə məlumatlandırılmışdır. Bütün araşdırma müddətində o, müdafiəçi vasitəçilə səmərəli təmsil olunmuşdur. Cinayət işinin materialları ilə tanış olmaq, məhkəmədə özünün şahidlərini çağırmaq, digər sübutları, o cümlədən şəxsi axtarış protokolunu mübahisələndirmək hüquqları təmin edilmişdir. Ona həm də bir neçə dəfə sorğular vermək hüququ təmin edilmişdir.

53. Hökumət ərizəçinin şəxsi axtarışını əsaslandıran öz dəlillərini də təqdim etdi: ilk növbədə göstərildi ki, CPM-nin 290-cı maddəsinə əsasən şəxsi axtarış təxirəsalınmaz hallarla əlaqədar məhkəmənin qərarı olmadan da keçirilə bilər. Hazırkı iş üzrə belə tədbir müvafiq polis idarəsinin rəhbəri tərəfindən onun 04 iyul 2004-cü il tarixli qərarı ilə sanksiyalaşdırılmışdır. Ikincisi, polis tərəfində alınmış əməliyyat məlumatına əsasən Muxiano rayonunda şübhəli şəxsin narkotik sərxoşluğu vəziyyətində olması, onun sübutları məhv etməyi planlaşdırması barədə şübhələnməyə əsas vermişdir. Ona görə də təxirəsalınmaz hallarla əlaqədar onun şəxsi axtarışının keçirilməsi qərara alınmışdır. Nəhayət şəxsi axtarış CPM-nin 321-ci maddəsinə əsasən iki müstəqil şahidin iştirakları ilə keçirilmiş və onların hər ikisi hadisənin rəsmi versiyasını təsdiq etmişlər.

54. Hökumət iddia etdi ki, şəxsi axtarışının leqallaşdırılmasına dair işin baxılmasında ərizəçinin iştirak etməməsi, onun Konvensiyanın 6-cı maddəsində nəzərədə tutulmuş hüquqlarının pozulması anlamına gəlmir. CPM-nin 290-cı maddəsində nəzərdə tutulmuş müvafiq prosedurlara istinad edərək hökümət göstərdi ki, səlahiyyətli hakim ittiham tərəfinin təqdim etdiyi təsdiqedici sənədlərə, o cümlədən şəxsi axtarış keçirilməsi barədə qərarın surətinə və axtarış keçirilməsinə dair polisin protokoluna istinad edərək müvafiq qərar qəbul etmişdir. Beləliklə, göstərilən məhkəmə prosesinin mənfi təsirləri qalmamışdır. Bununla əlaəqdar hökumət özünün qəbuledіənliklə bağlı arqumentini təkrar edərək göstərdi ki, müvafiq məhkəmə təxirəsalınmaz hallarla əlaqədar şəxsi axtarışın nəticələrini 05 iyul 2005-ci il tarixdə təsdiq edənədək ərizəçi CPM-nin 234-cü maddəsinə uyğun olaraq onun keçirilməsinin qanuniliyini mübahisələndirə bilərdi. Bundan əlavə, hökumətin fikrincə, ərizəçiyə şəxsi axtarışından əvvəl bu barədə qərarın surətinin təqdim edilməməsi heç bir əhəmiyyət kəsb etmirdi. Əslində ərizəçi də bu barədə ibtidai istintaq zamanı və ya birinci instansiya məhkəməsi qarşısında heç bir şikayət etməmişdir.

55. Nəhayət, Hökumət bildirdi ki, polis əməkdaşlarında ərizəçinin sübutları məhv etməyə çalışacağını şübhə altına almaq üçün kifayət qədər əsaslar olmuş və buna görə də təcili vəziyyətlərdə şəxsi axtarış aparmağa qərar verilmişdir.

*2. Məhkəmənin qiymətləndirməsi*

*a) Ümumi prinsiplər*

56. Avpopa Məhkəməsi xatırladır ki, konvensiyanın 6-cı maddəsi ədalətli məhkəmə araşdırması hüququna təminat verir və məhkəmənin vəzifəsi bütövlükdə məhkəmə araşdırmasının, o cümlədən sübutların əldə edilməsinin, qiymətləndirilməsinin ədalətliliyini, müdafiə və ittiham tərəflərinin hüquq bərabərliyi təmin edilməklə çəkişmə prinsipinə əməl edilməsinin, təqsirləndirilən şəxsin sübutları mübahisə etmək, onlara etiraz etmək hüququnun təmin edilməsini araşdırmaqdır. (bax: Bikkov v. Rusiya [GC], 4378/02, §§ 88-90, 10.03.2009 və Rowe və Davis Birləşmiş Krallığa qarşı [GC], 28901/95, § 60, AİHM 2000 II) . Proseslərin ədalətliliyinin qiymətləndirilməsində, əldə edilən sübutların doğruluğuna və ya dəqiqliyinə şübhə olmadığı da daxil olmaqla, sübutların keyfiyyəti nəzərə alınmalıdır. Dəlillərin digər materiallarla təsdiqlənməməsi halında heç bir ədalətsizlik problemi olmasa da, qeyd olunmalıdır ki, sübutlar çox inandırıcı olduqda və onların mötəbərsizliyi riski olmadıqda təsdiqedici sübutların dəstəklənməsi zəruriliyi zəifdir .

57. Məhkəmə təkrar edir ki, konvensiyanın 6-cı maddəsi məhkəmə araşdırmasının ədalətliliyini təmin etsə də, özü-özlüyündə sübutların mümkünlüyünün hər hansı qaydasını müəyyən etmir və bu ilk növbədə milli qanunvericiliyə əsasən nizamlanmanın vəzifəsidir.

58. Beləliklə məhkəmə prinsipcə məsələn milli qanunvericiliyin pozulması ilə əldə edilmiş sübutun mümkünlüyünü, ərizəçinin həqiqətən təqsirli, yaxud təqsirsiz olmasını müəyyən etməli deyildir. Cavab verilməli olan sual, dəlillərin əldə olunduğu üsul da daxil olmaqla proseslərin ədalətli olub-olmamasıdır. Bu sözügedən "qanunsuzluğun" və aşkar edilmiş başqa bir Konvensiya hüquq pozuntusunun xarakterinin öyrənilməsini özündə birləşdirir. (bax: Bəkkov, § 89 və Prade § 33, hər ikisi də yuxarıda göstərilən).

**(b) Cari işə ümumi prinsiplərin tətbiqi**

59. Ərizəçi şikayət etdi ki, onun üzərindən aşkar edildiyi göstərilmiş narkotik vasitə ona aid olmamışdır. O, həmçinin onun şəxsi axtarışının qanuniliyinə etiraz etmək üçün kifayət qədər prosessual vasitələrə malik olmadığını və daxili məhkəmələrin qərarlarının qanunsuz sübutlarla əsaslandırıldğından ədalətsiz hesab etdiyini iddia etdi.

60. Məhkəmə qeyd edir ki, ərizəçinin şəxsi axtarışının nəticələri ona qarşı cinayət işinin başlanmasına və məhkəmə icraatında ittiham olunmasına səbəb olan təməl nöqtəsidir. Ərizəçinin şəxsi axtarışına dair sonrakı polis protokolu, həmçinin axtarış aparan iki polis əməkdaşının və axtarışda iştirakı iddia edilən iki şahidin ifadələri ərizəçinin hökmünün əsasına qoyulmuşdur. Beləliklə, ərizəçinin şəxsi axtarışı onun ittiham hökmünü əsaslandıran sübutun əldə edilməsini təmin edən istintaq tədbiridir. Müzakirə edilən şəxsi axtarışın aparılması üsulu və sonradan onun nəticələrinin ərizəçiyə qarşı istifadə edilməsi üsulu məhkəmə prosesinin bütövlükdə ədalətliliyinə təsir etmişdir. Bu baxımdan Məhkəmə ərizəçinin Konvensiyanın 6-cı maddəsinin 1-ci bəndi üzrə şikayətinə baxacaqdır.

*(i) Sübutların əldə olunma qaydası*

61. Mövcud vəziyyətdə ərizəçinin şəxsi axtarışı məhkəmə qərarı olmadan, 4 iyul 2004-cü ildə rayon polis şöbəsinin rəisi tərəfindən verilən qərar əsasında aparılmışdır. Bu CPM-in 290-cu maddəsinin 2-ci və 4-cü bəndlərində nəzərdə tutulmuş təxirəsalınmaz hallarda tətbiq olunmaq üçün etibarlı bir prosedurdur (yuxarıda 37-cü bəndə bax). Məhkəmə qeyd edir ki, qərar, faktiki hallara hər hansı istinad etmədən əvvəlcədən çap üsulu ilə hazırlanmış mətndən, ərizəçinin tam adı və qanunsuz narkotik maddə saxlamaqda şübhələnildiyinə dair əlyazma ilə əlavə edilənlərdən ibarətdir (bax: yuxarıda 8-ci bənd). Qərarda ərizəçinin adı və ünvanı açıq şəkildə göstərilmişdir, halbuki, həmin qərarın əsasında şəxsi axtarış aparan polis əməkdaşları ifadələrində istinad edilən əməliyyat məlumatlarında sadəcə qeyri-müəyyən bir şəxsin müəyyən ünvanda narkotik vasitələrin təsirinə məruz qaldığı göstərildiyini bildirmişlər. (yuxarıda 22-28-ci bəndlərə bax). Bundan əlavə, qərarda əvvəlcədən məhkəmə qərarı olmadan tərixəsalınmaz şəxsi axtarışın tələb

olunduğu şərtlər göstərilməmişdir (bu baxımdan yuxarıda 37-ci bənddə göstərilən CPM-nin 290-cu maddəsinin 3-cü bəndi). Göründüyü kimi, məhkəmə qərarı olmadan ərizəçinin təxirəsalınmaz şəxsi axtarışını əsaslandıran konkret hallar (məlumatlar) sonrakı mərhələdə də müəyyən edilməmişdir, çünki ərizəçiyə qarşı başlanmış cinayət işi müvafiq əməliyyat məlumatları olmadan aparılmışdır (bu baxımdan aşağıda 68 və 69-cu bəndlərə bax). Müvafiq polis məmurlarının ifadələri də məsələyə aydınlıq gətirməmişdir (yuxarıda 12, 22 və 28-ci bəndlər. Beləliklə, əvvəlcədən şəxsi axtarış şəraiti müəyyən edilməmişdir.

62. Məhkəmə hesab edir ki, ərizəçinin şəxsi axtarışının faktiki halları da şübhə doğururdu və bütün məhkəmə prosesində bu şübhələr aradan qaldırılmamışdır. Ərizəçi narkotiklərin ona aid olmadığını göstərmiş və onun həbsinə şahid olan dostları onun həbsindən dərhal sonra şəxsi axtarış edilmədiyini iddia etmişlər. Buna cavab olaraq, hakimiyyətin səlahiyyətli orqanları, müstəqil iki şahidin tərəfsiz müşahidəçi qismində prosesdə iştirakını mövcud qanunvericiliyə əsasən polis tərəfindən mümkün sui-istifadə hallarına qarşı təminat olduğunu göstərdilər (bax: yuxarıda 37-ci bəndə baxın) Hər iki şahid müdafiəçinin iştirakı ilə məhkəmədə dindirilmiş və hökumətin fikrincə, onların ifadələri ərizəçinin axtarışının şərtlərini milli məhkəmələr tərəfindən araşdırılmasına kömək etmişdir. Məhkəmə qeyd edir ki, cənab U.K. məhkəmə prosesində ifadəsini dəyişmiş, şəxsi axtarışda iştirak etmədiyini və məhkəməyəqədər araşdırma zamanı zorakılığın təsiri altında yalan ifadə verdiyini göstərmişdir. Lakin milli məhkəmələr onun məhkəmə iclasındakı ifadələrini ciddiyə almamış məntiqsiz hesab etmişlər (bax yuxarıda paraqraf 26 və 33).

63. İkinci şahid cənab L.T., birinci instansiya məhkəməsinin qarşısına çıxmaqdan imtina edərək apellyasiya məhkəməsinə gəlmiş və ilkin bəyanatını təsdiq etmişdir (yuxarıda 29-cu bəndə baxın). Müdafiə tərəfi məhkəməyə bir sənəd təqdim edərək L.T.-nin köhnə polis məmuru olduğunu və bu səbəblə polis səlahiyyətlisi olaraq hərəkət etdiyini və müxtəlif cinayət işlərində şahid olaraq hərəkət etdiyini iddia edərək, onun tərəfsizliyini və müstəqilliyini mübahisələndirdilər. Lakin, apellyasiya məhkəməsi sadəcə bu sübutları nəzərə almamış və həmin sübutların həqiqiliyini yoxlamamışdır ( 33-cü bəndə bax).

64. İşin belə vəziyyətində, Avropa Məhkəməsi ərizəçının şəxsi axtarışında və sonradan məhkəmə araşdırmaları zamanı iki şahidin iştirakını axtarışın faktiki hallarının tədqiq edilməsinə kömək edən fakt kimi qəbul edə bilməz.

65. Ərizəçinin şəxsi axtarışının məhkəmə qərarı olmadan aparılmaşını, buna səbəb olmuş əməliyyat məlumatının faktiki olalraq mövcud olmamasını və polis əməkdaşlarının şəxsi axtarışın faktiki hallarına dair ziddiyyətli ifadələrini nəzərə alaraq, Avropa Məhkəməsi ərizəçinin şəxsi axtarışı nəticəsində əldə edilmiş sübutun etibarlılığının və mötəbərliliyinin şübhə doğurduğunu bildirir.

**(II) Ərizəçiyə sübutların həqiqiliyinə etiraz etmək və onun istifadəsinə qarşı çıxmaq imkanı verilmişdirmi**

66. Məhkəməyə təqdim olunmuş hökumətin arqumenti belədir ki, şəxsi axtarışın və şəxsi axtarış nəticəsində əldə edilmiş sübutun etibarlılığı iki məhkəmə prosesində ilk növbədə, axtarışdan sonra məhkəmə nəzarəti kontekstində, ikincisi faktiki olaraq ərizəçinin mühakiməsi zamanı məhkəmə araşdırmasının predmeti olmuşdur.

67. Məhkəmə qeyd edir ki, şəxsi axtarışın keçirilməsinin məhkəmədə araşdırmasında ərizəçinin iştirakı təmin olunmamışdır, məhkəmə baxışında çəkişmə təmin edilməmiş, axtarışın nəticələrinin təsdiq edilməsi barədə məhkəmə qərarından şikayət verilməmişdir(yuxarıda 37-ci bənddə göstərilən CPM-nin 290-cu maddəsinin 7-ci bəndinə bax). Belə vəziyyətdə, Avropa Məhkəməsi işin mahiyyəti üzrə araşdırılmasının adekvat olmasına dair qərar qəbul edə bilməz. Ərizəçinin şəxsi axtarışı faktının leqalizasiyası barədə qərar qəbul edərkən hakimin sərancamında polis əməkdaşı olan Ş.Ş.-nin əlyazma qeydlərindən və baxışda iştirakları ehtimal edilən iki şahidin ifadələrindən başqa heç bir material olmamışdır (bax:yuxarıda 12-ci və 13-cü bəndlər). Hökümətin öz qeydlərində göstərdiklərinin əksinə olaraq işin materiallarından görünür ki, ərizəçinin

təxirəsalınmadan şəxsi axtarışının keçirilməsini əsaqslandıran hallara dair qərar və onun keşirilməsinə dair protokol məhkəməyə təqdim edilməmişdir (bax: 14-cü bənd). Prokurorun təqdimatına baxmış məhkəmə, təqdim olunan sənədləri öyrənib elan etmişdir ki, şəxsi axtarış qanuni olmuş, həqiqətən təxirəsalınmaz hallar olmuş və prosessual qanunun tələbləri pozulmamışdır. Lakin, qərar heç bir müvafiq faktiki halla əsaslandırılmamış və təxirəsalınmazlığa dair heç bir dəlil göstərilməmişdir (15-ci bəndə bax).

68. Materiallardan görünür ki hökümətin nümayəndələri ərizəçinin şəxsi axtarışının keçirilməsinin əsaslarının mövcudluğu ehtimal edilən "əməliyyat məlumatı"nın, şəxsi axtarışın keçirilməsi barədə polis məmurunun qərarının və ərizəçiyə dair materialların məhkəməyə təqdim edilməməsi hallarına etiraz etməmişlər. Məhkəmə hesab edir ki, göstərilən sənədlərın və informasıyanın təqdim edilmədiyi şəraitdə ərizəçi barədə şəxsi axtarış keçirilənədək hökümət nümayəndələrinin şübhələrinin əsaslılıq dərəcəsini, axtarışın məhkəmə qərarı olmadan keçirilməsinin təxirəsalınmazlığını və zəruriliyini məhkəmə qiymətləndirə bilməzdi.

69. Ərizəçiyə qarşı aparılmış cinayət prosesinə gəldikdə məhkəmə qeyd edir ki, ərizəçi birinci instansiya məhkəməsində onun şəxsi axtarışı barədə protokolun həqiqəti əks etdirmədiyinə görə sübutlar sırasından çıxarılmasını xahiş etmiş, lakin onun xahişi cavabsız qalmışdır. Apellyasiya məhkəmə iclasında da həmin sübutun mümkünsüzlüyü barədə vəsatəti təmin edilməmiş və məhkəmə qərarında göstərilmişdir ki, məhkəmənin qərarı olmadan ərizəçinin saxlanması və şəxsi axtarışı yüksək vəzifəli polis məmurunun qərarı əsasında aparıldığından qanuni hesab edilir. Qeyd etmək lazımdır ki, şəxsi axtarışın aparılması barədə **əməliyyat məlumatları** və əməliyyat-axtarış tədbirinin keçirilməsinə dair materiallar, birinci, apellyasiya və kassasiya instansiya məhkəmələrinin baxış predmetinə aid olsa da məhkəməyə təqdim edilməmişdir.

70. Bundan əlavə, Məhkəmə yuxarıda göstərilən əsaslarla (yuxarıda 62-64-cü bəndlərə bax), prosesin iştirakçıları olan şahidlərin ifadəsinin əhəmiyyətini nəzərə alaraq, qeyd edir ki, şahidlər U.K.-nin ziddiyyətli ifadəsi, L.T.-nin polislə köhnə bağlılığı səbəbiylə ifadələrinin mötəbərsizliyi yerli məhkəmələr tərəfindən kifayət dərəcədə qiymətləndirilməmişdir. Hər iki məhkəmə icraatına dair yuxarıda göstərilən prosessual və maddi çatışmazlıqlar, prosesdə iştirak edən bütün polis əməkdaşlarının məhkəmə iclasında müdafiə tərəfinin iştirakı ilə dindirilməsi faktı ilə kompensasiya edilə bilməzdi.

71. Göstərilənlərə əsasən Məhkəmə qərara gəlir ki, ərizəçiyə şəxsi axtarışının şərtlərinə etiraz etmək və əldə edilmiş sübutların istifadəsinə milli səviyyədə etiraz etmək üçün effektiv şərait təmin edilməmişdir

***(iii İşin materiallarında olan digər sübutlar***

72. Bəzi sübutların yaranma mənbəyinin həqiqiliyinə şübhə yarandıqda, həmin şübhələr digər mənbələrdən alınmış sübutlarla aradan qaldırıla bilər. Məhkəmə qeyd edir ki, ərizəçinin şəxsi axtarışı barədə mötəbər hesabatın olmaması şəraitində həmin halı təsdiq edən hər hansı başqa mötəbər sübut iş materiallarında mövcud olmamışdır. Yuxarıda qeyd olunduğu kimi, prosesdə iştirak edən şahidlərdən birinin ziddiyyətli ifadələri və ikinci şahidin inandırıcı olmamasına dair toplanmış materiallar məhkəmə iclasında ətraflı tədqiq edilməmişdir. Polis əməkdaşlarına gəldikdə Avropa Məhkəməsi qeyd edir ki, onlar ərizəçiyə qarşı cinayət təqibinin təşəbbüskarları idilər, cinayət təqibinin təşəbbüskarı olan orqanın əməkdaşları idilər və ona görə də onlar ərizəçiyə qarşı cinayət təqibinin nəticələrində maraqlı idilər. Onların maraqlılığı xüsusilə ərizəçinin narkotik maddənin onun cibinə polislər tərəfindən atıldığını iddia etdiyini nəzərə alaraq daha aydın görünürdü. Buna baxmayaraq onların ifadələri məhkəmələr tərəfindən avtomatik olaraq etibarlı sübut kimi qəbul edilmişdir. Bundan fərqli olaraq ərizəçinin dostlarının ifadələri subyektiv mülahizə xarakterli, şübhə doğuran ifadələr kimi rədd edilmişdir (bax: 26-cı bənd). Məhkəmə qeyd edir ki, polis əməkdaşlarının ifadələri ərizəçinin məhkəmə qərarı

olmadan şəxsi axtarışına dair qərarı ilə ziddiyyət təşkil edirdi (yuxarıda 61-ci bəndə bax). Bual da yerli məhkəmələr tərəfindən nəzərə alınmamışdır.

***(iv) Nəticə***

73. Məhkəmə hesab edir ki, ərizəçiyə qarşı istifadə edilən əsas sübutun əldə olunduğu üsul onun etibarlılığına və mötəbərliyinə şübhə yaratmışdır. Bu sübutların əhəmiyyətini nəzərə alaraq, Avropa Məhkəməsi hesab edir ki, ərizəçinin şəxsi axtarışı zamanı yol verilmiş prosessual pozuntular, axtarışın faktiki şərtləri ilə əlaqəli olmayan ziddiyyətli sübutlar, məhkəmə proseslərində qeyri-adekvat məhkəmə araşdırması, ərizəçinin narkotik maddənin ona aid olmadığına dair iddialarını daxili məhkəmələrin kifayət qədər araşdırmaması, ittihamı təsdiq edən sübutların zəifliyi ərizəçinin məhkəmə araşdırmasını tamamilə ədalətsiz etmişdir. Buna görə də Konvensiyanın 6-cı maddəsinin 1-ci bəndi pozulmuşdur.

## II. KONVENSİYANIN İDDİA OLUNAN DİGƏR POZUNTULAR

Qərarın 74-77-ci bəndlərdə ərizəçinin konvensiyanın 5-ci və 8-ci maddələrinin pozulması barədə dəlillərinin qəbuledilənliyi yoxlanılmış və qəbuledilməz hesab edilmişdir.

## III. KONVENSİYANIN 41-ci MADDƏSİNİN TƏTBİQİ

78. Konvensiyanın 41-ci maddəsi aşağıdakıları nəzərdə tutur:

"Məhkəmə Konvensiyanın və ya onun protokollarının pozulduğunu müəyyən edirsə və əgər Razılığa gələn Yüksək Tərəfin daxili qanunvericiliyi yalnız qismən bərpa etməyə imkan verirsə, Məhkəmə zəruri hallarda, zərərçəkən tərəfə kompensasiya müəyyən edir.

**A. zərər**

79. Ərizəçi iddia etdi ki, ona qeyri-qanuni məhkumluğu səbəbindən itirilmiş mənfəət formasında maddi ziyan vurulmuşdur. O,müəyyən vaxtda müvəqqəti işə düzəlmiş və ayda 150 avro (Avro) qazanmışdır. O, qeyri-qanuni məhkumluq və həbs cəzası nəticəsində baş vermiş stress və əziyyətlər səbəbindən 40 min avro məbləğində mənəvi zərərə məruz qalmışdır.

80. Hökumət ərizəçinin maddi ziyana görə tələbinin əsassız olduğunu bildirdi. İşə düzəlməsi və gəliri barədə hər hansı bir sübut təqdim etməməsi ilə yanaşı ərizəçi iddia edilən zərərlə pozuntu arasında hər hansı əlaqənin olmasını göstərməmişdir. Mənəvi ziyana gəldikdə isə, həddindən artıq şişirdilmiş və əsassız olduğundan rədd edilməsini xahiş etdilər. Hökumət nümayəndələri pozuntunun aşkar edilməsinin kifayət qədər ədalətli kompensasiya təşkil etdiyini iddia etdilər.

81. Məhkəmə aşkar edilmiş pozuntu və iddia edilən maddi zərər arasında heç bir səbəbli əlaqə müəyyən etməmişdir. bu səbəbdən bu iddianı rədd edir. Mənəvi zərərə gəldikdə, Məhkəmə ərizəçiyə 3,500 avro və bu məbləğdən ödənilməli olan hər hansı vergi məbləğinin ərizəçilə ödənilməsini qərara alır.

**Б.Məhkəmə xərcləri**

82. Ərizəçi vəkillər L.Muxaşavriya və V. Vaxtanidze (yuxarıda 5-ci bəndə bax) tərəfindən təmsil olunmaq üçün 2,125 avro və 1,825 avro tələb edib. Bu məbləğlər iki vəkilin ərizəçinin ərizə, şikayət və vəsatətlərinin hazırlanmasına sərf etdiyi müddətin hər saatına 50 EUR olaraq hesablamışdır. Ərizəçnu özünün tərtib etdiyi iş günləri tabelindən başqa bu tələbini təsdiq edən heç bir hüquqi və ya maliyyə sənədi təqdim etməmişdir.

83. Hökumət iddia etdi ki, ərizəçi bu xərclərin həqiqətən baş verdiyini sübut edən maliyyə sənədləri təqdim etməmişdir. Onlar həm də iddia etdi ki, hər bir halda məbləğlər şişirdilmişdir.

85. Məhkəmə qeyd edir ki, ərizəçi Məhkəmə qarşısında iddia edilən məhkəmə xərclərini ödədiyi və ya ödəmək üçün hüquqi öhdəliyi olduğu barədə hüquqi və ya maliyyə sənədlərini təqdim etməyib. Belə sənədlərin olmaması halında, ərizəçinin iddia etdiyi xərclər və bu barədə öhtəliklərin həqiqətən, onun üzərinə düşdüyünü qəbul etmək üçün heç bir əsas tapmır. Bu iddia ona görə rədd edilməlidir.

**C. faizlər**

86. Məhkəmə müvafiq faiz dərəcəsini Avropa Mərkəzi Bankının kreditləşmə dərəcəsinə əsaslanaraq, üç faiz müəyyən edir.

Bu səbəbdən, Məhkəmə, yekdilliklə qərara aldı:

1. Konvensiyanın 6-cı maddəsinin 1-ci bəndinə əsasən ərizəçiyə qarşı cinayət təqibinin ədalətsizliyi barədə şikayətini qəbuledilən və şikayətinin qalan hissəsini qəbuledilməz elan edir;

2. Konvensiyanın 6-cı maddəsinin 1-ci bəndinin pozulduğunu qərara alır;

3. tutulsun:

(a) cavabdeh dövlət mənəvi zərərə görə Konvensiyanın 44-cü maddəsinin 2-ci bəndinə əsasən qərarın qüvvəyə mindiyi gündən üç ay müddətində 3,500 (üç min beş yüz avro) cavabdeh dövlətin valyutasına çevrilməklə ödəniş edilə bilər;

(b) yuxarıda göstərilən üç aylıq müddət başa çatdıqdan sonra yuxarıda göstərilən məbləğə əlavə olaraq, Avropa Mərkəzi Bankının kredit dərəcəsinə, üç faizə bərabər dərəcəsi ilə ödənilməlidir;

4. Ərizəçinin ədalətli ödənilməsi tələbinin qalan hissəsini rədd edir.

İngilis dilində tərtib edilmiş və 14 mart 2019-cu il tarixli, Məhkəmə Qaydalarının 77-ci maddəsinin 2-ci və 3-cü bəndlərinə əsasən yazılı şəkildə bildirilmişdir.

Angelica Nusberger- Prezident
Claudia Westerdiek- bölmə katibi